**Şeyxzamanovlar nəslinin övladıydı Məmmədrza. Gəncənin ən mötəbər, ən hörmətli soyadlarından biri olan Şeyxzamanovların nəslinin şair Nizami Gəncəviyə gedib çıxdığını ədəbiyyatşünas Firudin bəy Köçərli yazıb. Şeyxzamanovların başqa bir məşhur nümayəndəsi də Şeyx İbrahim Qüdsidir. Əsl sənəti müəllimlik olan Şeyx İbrahim əvvəllər "Naseh" təxəllüsü ilə şeirlər yazıb. "Qüdsi" təxəllüsünü isə ona Abbasqulu ağa Bakıxanov verib.**



# Unudulmaz aktyor...





Şeyx İbrahim Qüdsinin ailəsində dünyaya gələn İsa bəy ömrünün böyük hissəsini Şeyxzamanovlara nəsildən-nəslə keçən müqəddəs bir vəzifəni yerinə yetirməyə - İmamzadənin keşikçisi olmağa həsr edib. Hacı İsa bəy bir neçə dəfə evlənib. Uşaqları olub. Sonuncu dəfə Böyükxanım adlı ikiuşaqlı, dul qadınla ailə qurub. Onların üç uşağı, iki oğlu, bir qızı olub. Məmmədrza Şeyxzamanov Hacı İsa bəylə Böyükxanımın ortancıl övladlarıydı. O, 1915-ci ildə avqustun 4-də dünyaya göz açanda İsa bəyin gəlhagəlli günləriydi. Gəncənin ən nüfuzlu, imkanlı kişilərindən sayılan Hacı İsa bəy üçün dövranın çərxi Sovet hökuməti qurulandan sonra tərsinə dolanmağa başlayıb.

## Qayğı dolu uşaqlıq illəri

Varlı-hallı adamların əksəriyyəti kimi əvvəlcə mal-dövləti əlindən alınıb. Həmişə firavanlıq içərisində yaşamağa adət edən Hacı İsa bəyə belə günləri görmək asan olmayıb. Bir yandan da oğlu Ələsgərin həsrətindən için-için qovrulub. Hər zaman təhsilə böyük dəyər verən İsa bəy oğlunu Azərbaycan Xalq Cümhuryyəti vaxtı Türkiyəyə oxumağa göndərmişdi. Sovet hakimiyyəti qurulduqdan sonra onun vətənə gələn yolları bağlanıb.

Həsrət, qarşılaşdığı haqsızlıqlar İsa bəyi yorub. Elə bu narahatlıqlar, nigaranlıqlar içərisində bir gün gözlərini əbədi yumub. Şeyxzamanovların əksəriyyəti kimi, Hacı İsa bəyi də İmamzadədə torpağa tapşırıblar. Balaca Məmmədrza anasının ümidinə qalıb.

Sovet hökuməti yerini möhkəmlətdikcə varlılara qarşı münasibəti daha da kəskinləşirdi. Böyükxanım yaşadıqları mülkü tamamilə itirməmək üçün könüllü olaraq orada fabrikə yer verib. Əvəzində öz doğma evində bir böyük otaq ala bilib.

Anası uşaqları çətinliklə dolandırıb. Elə buna görə də hələ çox gənc olan qızı Həmidəyə elçi gələndə tərəddüd etmədən razılıq verib. Cənubi Azərbaycandan olan həyat yoldaşı bir müddət sonra Həmidəni öz yurduna aparıb. Çox keçməyib İranla sərhəd bağlanıb. Qardaşının xiffətini çəkən Məmmədrza Şeyxzamanovun ürəyinə bir ayrılıq yarası da vurulub.

Ehtiyac içində yaşadıqlarını, anasının dolanışıq üçün əzablara qatlaşdığını görən, ona kömək etmək istəyən Məmmədrza Şeyxzamanov on iki yaşından işləyərək evə qazanc gətirib. Gəncə İnşaat Texnikumuna daxil olandan sonra təqaüd də alıb.

## Ömrün əsl səadəti

Bir gün məktəbdən evə sevincək qayıdıb. Anası onun üzünə baxanda anlayıb ki, oğlunun həyatında nəsə böyük bir hadisə baş verib. Doğrudan da, həmin gün texnikumun dram dərnəyinə qəbul olunmasını Məmmədrza Şeyxzamanov özü üçün əsl səadət sayıb. Şeyxzamanovlar kimi böyük, sanballı nəslin övladı olsa da, evdə "Sənin teatr aləmində nə işin var?" deyə narazılıq edən, onu bu yoldan çəkindirməyə cəhd göstərən olmayıb. Narazılıq edəcək kim qalmışdı ki?.. Atası vəfat etmişdi, böyük qardaşı, bacısı Vətən həsrətlisiydilər.

Anasının təsəllisi, ümid yeri olan Məmmədrza Şeyxzamanovu tezliklə Gəncə Dram Teatrının rejissoru Həbib İsmayılov teatrın nəzdindəki studiyaya dəvət edib. O, aktyor kimi Gəncədə yavaş-yavaş tanınmağa başlayıb. Bir gün Səməd Vurğunun "Vaqif" dramını tamaşaya hazırlayırlar. Müəllif özü də məşqə baxmağa gəlib. Məmmədrza Şeyxzamanovun Eldar obrazını necə ifa etdiyini görüb, bəzi məsləhətlər verib. Onu istedadlı aktyor kimi də o vaxt bəyənib.

Məmmədrza Şeyxzamanov texnikumda təhsilini başa vurub. Amma oradan aldığı mühəndislik diplomuna uyğun iş tapmaq heç yadına da düşməyib. Artıq Gəncə Dram Teatrının səhnəsində həvəslə ifa etdiyi və hələ arzusunda olduğu neçə-neçə rollar var idi. Bu ağbəniz, qədd-qamətli, gözəgəlimli iyirmi dörd yaşlı gəncin pərəstişkarları az deyildi. Elə sevib-seçdiyi Nigar xanım da Məmmədrza Şeyxzamanovun pərəstişkarı idi. Nigar xanımın ailəsi kasıb artistin elçilərinə "yox" deyiblər. Ancaq gənclər sevgilərindən dönməyiblər. Məmmədrza Şeyxzamanov sevdiyi qızı qaçırıb. Bir ildən sonra - 1939-cu ildə qızları Leyla dünyaya gəlib.

Uşaqlıqdan əziyyətlər çəkən Məmmədrza Şeyxzamanov artıq taleyin ona əl uzatdığını düşünüb. Xoşbəxt ailəsi vardı. Gəncə teatrında işləri yolundaydı. Oynadığı rolların siyahısı gündən-günə genişlənirdi. Amma həyatı öz axarına düşən Məmmədrza Şeyxzamanovun rahat günləri uzun sürmür.

O, dövlətli ailədə dünyaya gəlmişdi. Qardaşı Cümhuriyyət hökumətinin qərarı ilə Türkiyəyə göndərilən gənclərdən biri kimi xaricdə qalmışdı. Bacısı da İranda yaşayırdı. Bu cür tərcümeyihalla Sovet hökumətinin onu dinc buraxması möcüzə olardı. Ancaq bu möcüzə baş verməyib. Qohumlarının bir çoxu kimi o da həbs edilib. Həyat yoldaşı kiçik övladı ilə birlikdə sürgün olunub. Yeddi il Qazaxıstanda sürgündə qalıblar. Körpə uşaqla orada çox zülmlər çəkiblər. Qazaxıstanın sərt qışına çətinliklə dözüblər.

Yeddi il sonra ailəsini də götürüb gizlincə Qazaxıstandan Gəncəyə qayıdıb. Bir müddət üzə çıxa bilməyiblər. Gizli yaşadıqlarına görə işə düzəlməsi də mümkün olmayıb. Çarəsiz qalan Məmmədrza Şeyxzamanovun yadına Səməd Vurğun düşüb. Ona müraciət edib, başına gələnləri danışıb, şairdən kömək istəyib. Səməd Vurğun onu naümid qoymayıb. Şairin bircə sözü ilə Məmmədrza Şeyxzamanovun işləri yoluna düşüb. Yenə Gəncə Dram Teatrında işləməyə başlayıb.

Azərbaycan Dövlət Akademik Dram Teatrının yaradıcı heyətinin 1955-ci ildə Gəncəyə qastrol səfəri ona uğur gətirib. Rejissor Adil İsgəndərov Məmmədrza Şeyxzamanovu həmin teatra dəvət edib. Ailəsini də götürüb Bakıya gəlib. Bu teatrda ilk dəfə "Göz həkimi" tamaşasında professor Şahbazov kimi səhnəyə çıxıb. Elə birinci rolu ilə tamaşaçılar onu fərqləndiriblər.

Aktyoru sürgünə göndərəndə səbəbini söyləməmişdilər. Uzun illər sonra qızı Afaq xanım atasının istintaq işini oxuyanda bunları öyrənib: "Məmmədrza Şeyxzamanov pantürkist olmaqda, Türkiyə dövlətinə casusluq etməkdə ittiham olunmuşdu". Sovet hakimiyyəti Məmmədrza Şeyxzamanova sürgün əzablarından başqa bir də ayrılıq əzabları yaşadıb. Bacısı Həmidə xanım uzun illər sonra vətənə dönüb burada yaşamağa icazə ala bilsə də, qardaşı Ələsgərə ömrünün sonunadək həsrət qalıb.

## Teatrdan kinoya

Məmmədrza Şeyxzamanov uzun illər Akademik Dram Teatrında çalışıb. Səhnəyə bir-birindən fərqli, maraqlı rollarla çıxıb. "Vaqif"də Eldar, Qacar, "Xosrov və Şirin"də Xosrov, "Yaşar"da İmamyar, "İliç buxtası"nda Əşrəf, "Aydın"da Aydın, "Qış nağılı"nda Poliksen, "İblis"də İxtiyar... olub. Vəfalı tamaşaçıları onu həmişə sevib, alqışlayıblar.

Məmmədrza Şeyxzamanovun qismətinə maraqlı, yaddaqalan rollar ifa etmək düşüb. Taleyi həm də o zaman üzünə gülüb ki, onu "Bəxtiyar" filminin çəkilişlərinə dəvət ediblər. Həmin filmdə professor rolunu oynayıb. Sonralar "Bir qalanın sirri", "Nəsimi", "Tütək səsi", "Yeddi oğul istərəm", "Telefonçu qız", "Əhməd haradadır", "Görüş" və başqa filmlərə çəkilib.

Sənətini həddindən artıq sevib. Aktyor kimi təhsil almasa da, bu sənətə aid çoxlu kitablar oxuyub. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq ona həvalə edilən hər bir rola məsuliyyətlə yanaşıb, öz üzərində ciddi işləyib.

Onu həyatda səmimi, təvəzökar, mehriban, ciddi adam kimi tanıyıblar. Altmış doqquz illik ömründə çox çətinliklər görüb. Böyük tamaşaçı sevgisi, yaddaqalan rollar istedadlı aktyora şöhrət gətirib. Ancaq Xalq artisti adını 1974-cü ildə, 59 yaşında alıb.

Məmmədrza Şeyxzamanov 1984-cü il yanvarın 25-də vəfat edib. Qüdrətli aktyor bir zamanlar səhnə, ekran ömrü verdiyi rollarla unudulmaz olub...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2020.- 6 sentyabr.- S.5.